

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 54 (22.965)

*20 mart 2018-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı – Novruz münasibətilə ümumxalq şənliyi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz şənliyində iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəliblər.

Milli geyimli uşaqlar meydanda rəqs ediblər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnılarının sədaları ətrafa yayılıb, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğurub.

Bahar qız dövlətimizin başçısına səməni təqdim edib.

Ulu Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzulayıb.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırıb.

Dövlətimizin başçısı bayram şənliyində nitq söyləyib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ümumxalq şənliyinin iştirakçıları Dənizkənarı Milli Parka gəliblər.

Azərbaycanın müxtəlif bölgələrindən gələn özfəaliyyət dərnəklərinin, rəqs və mahnı qruplarının çıxışları maraqla qarşılanıb.



## Naxçıvanda Novruz bayramı münasibətilə ümumxalq şənliyi keçirilmişdir

Azərbaycan xalqı insanın yaranışı və təbiətin oyanışı ilə bağlı təsəvvürlərini Novruz bayramında ümumiləşdirərək zəngin dəyərlər sistemi yaratmışdır. Novruz bayramı tarixi-mədəni keçmişimizə yüksək ehtiramın, milli dəyərlərimizə dərin bağlılığın ifadəsidir. Buna görədir ki, ulu öndərimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin bütün dövrlərində Novruz ənənələrinin yaşadılması qayğısına qalmış, bu bayramı milli varlığımızın və müstəqil dövlətçiliyimizin rəmzinə çevirmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin Novruz bayramı münasibətilə xalqımıza təbrikində deyildiyi kimi: ***"Azərbaycan torpağında qədim tarixi köklərə malik Novruz bayramı uzaq keçmişlərdən mənəvi dünyamızın ən dərin qatlarınadək nüfuz etmiş, müqəddəs dəyərlərimizin təşəkkülünə töhfələr vermiş və milli düşüncə tərzimizin ayrılmaz tərkib hissəsi olmuşdur... Novruz bayramı azadlıq və istiqlal duyğularımızın ifadəsinə çevrilməklə möhtəşəm yubileyi ərəfəsində olduğumuz Azərbaycan Xalq Cümhuriyyətinin gerçəkləşməsi və XX əsrin sonlarına doğru xalqımızın müstəqil dövlətçilik idealına yenidən qovuşması üçün zəmin hazırlamış milli özünüdərk amillərindəndir".***







Naxçıvan Muxtar Respublikasında Novruz bayramı hər il yüksək nailiyyətlərlə qarşılanır, baharın gəlişi quruculuq, əmin-amanlıq və sabitlik şəraitində qeyd olunur.

Martın 19-da Naxçıvan şəhərindəki "Əcəmi Seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksində Novruz bayramı münasibətilə bayram şənliyi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ailə üzvləri ilə birlikdə bayram şənliyində iştirak etmişdir.

El ağsaqqalı Dədə Qorqud Novruzun gəlişi münasibətilə xeyir-dua verərək demişdir: "Bu gün Oğuz yurduna Novruz gəlir. El-oba yeni ilə qədəm qoyur, köhnə ili yola salır. Ötən il böyük əməllərlə yadda qaldı. Bu il isə qədim Naxçıvanımız İslam Mədəniyyətinin Paytaxtı oldu. Düşərli olsun! Ulu Naxçıvan bu il İslam Mədəniyyətinin Paytaxtı kimi möhtəşəm tarix yazacaq. Uğurlu olsun! Qorqud ata deyir ki, bütün bu uğurların yaradanı var. Ömrü uzun olsun! Bu qədim diyarı İslam mədəniyyətinə, məğrur gəncliyə paytaxt edən oğullarımız var olsun! Bu əziz gündə qədim diyarımızın dünənini və bu gününü göz önünə gətirib deyirik:

*Ardı 2-ci səhifədə*





xalq üçün yaradanları, tarix də yaşadacaqdır! Novruz bayramınız mübarək olsun!”

Milli geyimli oğlan və qız Ali Məclisin Sədrinə səməni təqdim etmişlər.

Naxçıvan Dövlət Filarmoniyasının rəqs qrupunun ifasında “Odlar yurdu” rəqsi təqdim olunmuşdur.

Xalq yaradıcılığımızın ən qədim nümunələrindən olan, milli musiqimizin və söz sənətimizin incəliklərini özündə birləşdirən aşıq sənəti bu gün də muxtar respublikada yaşadılır. Xalq yaradıcılığı günlərində saza, sözə də yer verilir, aşıq havaları təqdim olunur. Tədbirdə Naxçıvan Aşıqlar Birliyinin üzvləri “Ana yurdum Naxçıvan” havasını ifa etmişlər.

Naxçıvan Musiqi Kollecinin “Muğam üçlüyü”nün çıxışı, Sazçalanlar ansamblının ifasında səslənən “Kəndimiz” gözəlləməsi alqışlarla qarşılanmışdır.







Bu gün muxtar respublikada milli rəqslərimiz, xüsusilə yallı gələcək nəsillərə öyrədilərək yaşadılır, təbliğ olunur. Tədbirdə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin “Əlvan çiçəklər” mahnı və rəqs ansamblının üzvləri milli rəqslərimizi məharətlə ifa etmişlər.

Tarixi min illərə söykənən musiqi alətlərimizdə – tulum, zurna, balaban və tütəkdə təqdim olunan milli musiqi nümunələri bayram tədbirində xoş ovqat yaratmışdır.





Naxçıvan şəhər sakini Süreyya Ələkbərova muxtar respublikadakı əmin-amanlığın, sabitliyin və inkişafın Novruz bayramını xoş ovqatla qarşılamağa imkan verdiyini bildirmiş, Ali Məclisin Sədrinə sakinlər adından təbriklərini çatdırmışdır.

Novruzla bağlı yaranan folklor nümunələri xalqımızın qədim məişət həyatı, həyat tərzi və inancları haqqında dolğun məlumat verir. Naxçıvan Qızlar Liseyinin şagirdləri bayatı, tapmaca və Novruz inanclarından ibarət kompozisiya təqdim etmişlər.

Sonra Naxçıvan Musiqi Kollecinin “Naxçıvanqala” ritm qrupunun və Naxçıvan Dövlət Uşaq Filarmoniyasının rəqs qrupunun çıxışları olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bayram tədbirində çıxış edərək demişdir: Novruz bayramı milli dəyərlərimizi və adət-ənənələrimizi özündə təcəssüm etdirir. Buna görədir ki, bütün tarix boyu bu bayram milli birlik rəmzi kimi qəbul olunubdur. Builki Novruz bayramı sonuncu çərşənbə ilə eyni gündə qeyd olunur.

Ali Məclisin Sədri Novruz bayramı və Od çərşənbəsi münasibəti ilə muxtar respublikanın əhalisini, hərbi hissələrinin şəxsi heyətlərini və tədbir iştirakçılarını təbrik edərək demişdir: Novruz bayramı muxtar respublikada əmin-amanlıq içində, sabitlik və firavanlıq şəraitində qarşılanır. Ötən il muxtar respublika iqtisadiyyatının bütün sahələrində davamlı inkişaf təmin edilmiş, sabitlik möhkəmləndirilmiş, əhalinin rifahı yaxşılaşdırılmışdır. Bu dövrdə ümumi daxili məhsul istehsalının həcmi 2 milyard 701



milyon manatdan artıq olmuş, 60 yeni istehsal və xidmət obyekti yaradılmışdır. Həmişə olduğu kimi, 2017-ci ildə də tikinti-quraşdırma işləri davam etdirilmiş, 236 müxtəlif təyinatlı obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. 2017-ci ildə muxtar respublikada 967 milyon manatdan çox sənaye, 453 milyon manatdan artıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. Yerli istehsalın həcminin artması xarici ticarət əlaqələrinin inkişafına da öz təsirini göstərmiş, 50-dən çox ölkə ilə ticarət əlaqələri yaradılmışdır. Bu gün qeyd etmək xoşdur ki, qazanılan nailiyyətlər muxtar respublikanın iqtisadi potensialını artırmışdır. Uğurlu inkişafın nəticəsidir ki, Azərbaycan Respublikası Prezidentinin sədri olduğu “Caspian European Club”un 2017-ci il üçün hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxmışdır.

Ali Məclisin Sədri muxtar respublikanın inkişafında və qazanılan uğurlarda əməyi olanların hamısına təşəkkürünü bildirmişdir.

Ali Məclisin Sədri demişdir: Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı seçilmişdir. Bu da qarşıya mühüm vəzifələr qoyur. Bu il muxtar respublikada mədəni-kütləvi tədbirlərin əhatə dairəsi genişlənəcək, gənclər siyasəti ilə bağlı ardıcıl tədbirlər həyata keçiriləcəkdir. Eyni zamanda quruculuq işləri də davam etdiriləcək, sosial-iqtisadi islahatlar diqqətdə saxlanacaqdır. Əminik ki, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət və bu yolun ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsi hər il olduğu kimi, bu il də ölkəmizi inkişafa qovuşduracaq, dövlət müstəqilliyimiz və sabitlik daha da möhkəmlənəcəkdir.

Ali Məclisin Sədri bir daha tədbir iştirakçılarının Novruz bayramını təbrik etmiş, bayram tonqalını yandırmışdır.

Naxçıvanda qədim musiqi alətlərimizin bərpasına xüsusi diqqət yetirilir. Bu sahədə görülən işlərin nəticəsidir ki, Naxçıvan Dövlət Filarmoniyasında Qədim Musiqi Alətləri Ansamblı yaradılmışdır. Tədbirdə ansamblın ifasında xalq mahnılarımız səslənmişdir.

Naxçıvan Dövlət Kukla Teatrının kollektivi “Bahar sovqatlı Novruz” tamaşasını səhnələşdirmiş, Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin “Nağaraçalanlar” ansamblının ifasında maraqlı kompozisiya təqdim olunmuşdur.

Bayram şənliyində ictimai iaşə xidməti də göstərilmiş, yerli müəssisələrin istehsal etdikləri məhsulların satışı təşkil edilmiş, muxtar respublikada hazırlanan müxtəlif növ bayram şirniyyatları, şərbət və içkilər tədbir iştirakçılarına təklif olunmuşdur.

Ali Məclisin Sədri ictimai iaşə xidmətinin təşkili ilə maraqlanmışdır.

“Bu şəhərdə” teatr studiyasının rəhbəri Müşfiq Abbasov, aktyorlar – Azərbaycan Respublikasının Əməkdar artistləri Rəfael İsgəndərov və Coşqun Rəhimov Ali Məclisin Sədrinə bayram təbriklərini çatdırmışlar.

Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də Novruz bayramı münasibətilə şənliklər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Martın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Azərbaycanda keçiriləcək prezident seçkilərini müşahidə etməyə gəlmiş missiyasının muxtar respublikada fəaliyyət göstərəcək müşahidəçiləri Filipo Ristoldo və Risto Hurme ilə görüşmüşdür.

Səmimi qəbula görə minnətdarlıq edən Filipo Ristoldo və Risto Hurme Novruz bayramı ərəfəsində muxtar respublikada olmaqdan məmnunluqlarını bildirmişlər. Müşahidəçilər seçki kampaniyasını və səsvermə prosesini yaxından izləyəcəklərini bildirmiş, fəaliyyət istiqamətləri barədə məlumat vermişlər.

Ali Məclisin Sədri muxtar respublikada seçki prosesinə hazırlıq işlərini diqqətə çatdırmış, beynəlxalq müşahidəçilərin fəaliyyəti üçün hərtərəfli şəraitin yaradıldığını qeyd etmişdir. Seçki müşahidələrinin qanunvericiliyin tələblərinə uyğun aparılacağına əminliyini bildirən Ali Məclisin Sədri qonaqlara fəaliyyətlərində uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Novruz bayramı muxtar respublikamızın bütün rayonlarında yüksək əhval-ruhiyyə ilə qeyd edilib

### *Şərur rayonu*



***Mart ayının 19-da Şərur şəhərinin Heydər Əliyev prospektindəki geniş meydanda "Xonçalı Novruz gəlir" adlı ümumrayon bayram şənliyi keçirilib.***

Yazın gəlişini, Novruzu təmsil edən müxtəlif şüar və plakatlarla bəzədilmiş meydanda rayon Mədəniyyət və Turizm Şöbəsi musiqi və teatr kollektivlərinin hazırladıqları əyləncəli, rəngarəng proqramlar bayram şənliyinə toplaşanların alqışları ilə qarşılanıb. Tonqal ətrafında rəqs edənlərin, yallı gedənlərin, halay tutanların çıxışları, əllərində Baharın rəmzi olan səməni gəzdirən qızların meydan boyu rəqsləri, Keçəl və Kosanın Novruz əhval-ruhiyyəli məzəli hərəkətləri və zarafatları hər kəsin diqqətini çəkib. Tamaşaçılar bəzədilmiş faytonla meydana daxil olan Bahar qızı alqışlarla qarşılayıblar.

"Arpaçay" instrumental ansamblının müşayiəti ilə müğənnilərdən Cabbar Əliyev, Fərman Allahverdiyev, Həqiqət Mehdiyeva, Coşqun Hüseynov, Samir Quliyev və başqaları Novruzu, baharı vəsf edən nəğmələr və xalq mahnıları ifa ediblər. Ələkli və Yuxarı Daşarx kəndlərindəki uşaq musiqi məktəblərinin sazçalanlar ansamblları aşıq mahnıları ifa edib, qara zurnanın səsi ətrafa yayılıb. Doğma Azərbaycanımızı beynəlxalq xalq yaradıcılığı festivallarında məharətlə təmsil edən və Vətənə həmişə yüksək mükafatlarla dönən yallı kollektivlərinin birləşmiş rəqsləri şənliyi daha da rövnəqləndirib. Meydana daxil olan Bahar qız tədbir



iştirakçılarını salamlayıb.

Tədbir iştirakçılarına ictimai iaşə xidməti də göstərilib.

Şənlikdə arzular, diləklər də bildirilib, el ağsaqqalı Dədə Qorqudun, xalq qəhrəmanı Babəkin igidliyə, birliyə, mərdliyə səsləyən müdrik kəlamları xatırlanıb.

Novruz şənlikləri rayonda xalqımızın birliyinin, yenilməzliyinin, əyilməzliyinin, keçmişimizə sadiqliyinin, gələcəyə böyük inamının simvolu kimi əsl bayram əhval-ruhiyyəsi ilə qeyd edilib. Şənlik xalqımızın qədimliyini, ululuğunu, yekdilliyini bir daha nümayiş etdirib və hər bir kəsdə xoş əhval-ruhiyyə yaradıb.

### *Babək rayonu*



Azərbaycan xalqı ta qədimdən özünün zəngin adət-ənənələrini yaradıb və dövrün, zamanın dəyişməsinə baxmayaraq, onu yaşadaraq bu günümüzə gətirib çıxarıb. Ata-babalarımızdan bizə yadigar qalan, milli ruhumuzu özündə əks etdirən Novruz bayramı da bu qəbildəndir. Bu bayram münasibətilə Babək rayonunda da şənlik keçirilib.

Tədbir aparıcıları rayon sakinlərini Novruz bayramı münasibətilə təbrik edərək bildiriblər ki, tarixi çox qədim olan Novruz bayramı hər il xalqımız tərəfindən böyük təntənə ilə qeyd olunur. Novruz bayramı təzə ili, baharın ilk gününü qarşılamaq deməkdir. Novruz bayramı həm də təbiətin canlanmasının, gecə ilə gündüzün bərabərləşdiyi günün qeyd olunmasıdır.

Bayram tədbirində mədəniyyət və incəsənət nümayəndələrinin ifalarında Novruzu, baharı vəsf edən mahnılar oxunub, xalq mahnıları, aşıq havaları səsləndirilib. Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin hazırladığı konsert proqramı tədbir iştirakçılarında xoş ovqat yaradıb. Xalq çalğı alətləri, nağaraçalanlar və sazçalanlar ansambllarının ifaları, rayon Mədəniyyət evinin yallı qrupunun təqdim etdikləri rəqslər şənlik iştirakçıları tərəfindən alqışlarla qarşılanıb. Müxtəlif milli oyunlar, qədim məişət əşyaları, milli mətbəx nümunələri və şirniyyatlar, adət-ənənələrimiz, folklorumuz nümayiş etdirilib.

### *Ordubad rayonu*

Xalqımızın yüzillər boyu yaşatdığı, milli ruhumuzu özündə əks etdirən Novruz bayramı muxtar respublikamızın hər yerində olduğu kimi, Ordubad rayonunda da yüksək əhval-ruhiyyədə qeyd edilib. Rayon mərkəzində təşkil olunan bayram şənliyində çıxış edən aparıcılar bildiriblər ki, əsrlərin sınağından çıxaraq milli dəyərlərimizi özündə yaşadan Novruz qədimdən bəri insanlar arasında həmrəylik, mərhəmət və mehribanlıq duyğularının təməli olub. Azərbaycanda milli bayram kimi hər il yüksək səviyyədə qeyd olunan Novruz bayramı xalqın müqəddəs ənənələrinə söykənməklə, özündə böyük bədii-estetik, mənəvi-əxlaqi, ülvi və dünyəvi duyğuları təcəssüm etdirir.

Tədbirdə iştirak edənlərə xeyir-dua vermək üçün el ağsaqqalı Dədə Qorqud meydana gəlib. Xalqımıza əmin-amanlıq, xoş



günlər arzulayıb.

Sonra bayram tonqalı yandırılıb. Tonqal ətrafında milli rəqslərimiz ifa olunub, Novruza aid şeirlər söylənilib.

Rayonun mədəniyyət evlərinin folklor qruplarının çıxışları alqışlarla qarşılanıb.

"Xanbəzəmə" oyun-tamaşası Ordubadda hər il keçirilən Novruz şənliklərində təqdim olunan əsas ənənələrdəndir. Təqdim edilən kompozisiya tədbir iştirakçılarında yüksək ovqat yaradıb.Tədbirdə rayon mədəniyyət evinin "Dübəndi" instrumental ansamblı üzvlərinin ifasında Novruza, yazın gəlişinə həsr olunan mahnılar səsləndirilib.

Qeyd edək ki, bayram şənliyində yerli istehsal məhsullarından ibarət ictimai iaşə xidməti göstərilib, əl işlərindən ibarət sərgi təşkil edilib.

### *Culfa rayonu*

***Əsrlərin sınağından çıxmış milli dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz bayramı Culfa rayonunda da yüksək səviyyədə qeyd edilib.***





Ulu Dədə Qorqudun müdrik kəlamları, alqış və xeyir-duası ilə başlanan şənlikdə tonqal alovlandırılıb, xalq yaradıcılığı nümunələri sərgilənib. Bahar qız, Kosa və Keçəlin iştirakı, onların duzlu-məzəli zarafatları ilə keçən bayram tədbirini mahnı və rəqs kollektivlərinin töhfələri rövnəqləndirib. Bayram şənliyində Gülüstan mədəniyyət evinin hazırladığı rəqs, Milax kənd mədəniyyət evinin folklor kollektivinin hazırladığı "Tənzərə" yallısı, Kırna mədəniyyət evinin hazırladığı "Gəlinbacı" xalq oyunu, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Azər Cəfərlinin "Töhfəmiz olsun", Culfa Şəhər Uşaq Musiqi Məktəbinin nağaraçalanlar ansamblının "Azərbaycan ritmləri", balabanda Kamil Abbasovun xalq mahnısı "Çoban Qara", Üzeyir Hacıbəyovun"Arşın mal alan" operettasından Sahib Əliyevin və Sura Məmmədlinin təqdim etdikləri bir parça, digər mahnı və rəqslər şənlik iştirakçılarında bayram ovqatını daha da artırıb.

Tədbirin aparıcıları Novruzun əsl birlik bayramına çevrildiyini və ümumxalq bayramı kimi hər il böyük təntənə ilə qeyd olunduğunu bildiriblər.

Vurğulanıb ki, Culfa rayonunda da hər il bu bayram yüksək əhval-ruhiyyə ilə qarşılanır. Bu bölgəmiz də müstəqillik illərində müasir bir rayona çevrilib. Culfa şəhərində, kənd yaşayış məntəqələrində tikinti-quruculuq tədbirləri geniş vüsət alıb. Bu da culfalılara böyük sevinc və fərəh bəxş edib. Bu il də Culfa rayonunun sakinləri Novruz bayramını qeyd etmək üçün bir araya gəliblər.

Şənliyə toplaşan tamaşaçıların alqışları ilə qurşaq tutub güclərini nümayiş etdirən gənc pəhləvanlar tədbirə əsl bayram ab-havası qatıblar.

*Ardı 4-cü səhifədə*

## Kəngərli rayonu

*Rayon mərkəzi Qıvraq qəsəbəsindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında keçirilən bayram şənliyində rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.*

Novruz bayramı münasibətilə bəzədilmiş parkda böyük qələbəlik yaşanıb. Rayon Mədəniyyət və Turizm Şöbəsinin “Kəngər” instrumental ansamblının, uşaq musiqi məktəblərinin musiqi kollektivlərinin, folklor qruplarının, “Sazçalan qızlar” ansamblının, Bahar qızın,



rayon idmançılarının çıxışları, at yarışı, Keçəl və Kosanın nümayiş etdirdiyi oyunlar tədbir iştirakçılarında yüksək əhval-ruhiyyə yaradıb. Tədbirin keçirildiyi ərazidə göstərilən ictimai iaşə xidmətinə də maraq böyük olub.

Xatırladaq ki, Novruz bayramı Kəngərli rayonunun sakinləri üçün xüsusilə əlamətdardır. Çünki bu rayon Novruz bayramı ərəfəsində – 2004-cü il martın 19-da yaradılıb. Bu barədə bayram şənliyində ətraflı məlumat verilib.

Qeyd olunub ki, yaradıldığı gündən ötən müddət ərzində Kəngərli rayonu böyük inkişaf yolu keçib. Rayon mərkəzi də daxil olmaqla, bütün kəndlərdə infrastruktur layihələri reallaşdırılıb, yollar abadlaşdırılıb, yaşıllaşdırma tədbirləri həyata keçirilib, əhalinin rifah halı yaxşılaşıb. Son dövrlərdə isə rayon ərazisindəki tarixi mədəniyyət abidələrinin bərpası və təmiri üçün mühüm işlər görülür. Belə ki, Qarabağlar kəndindəki Qarabağlar Türbə Kompleksində bərpa işləri davam etdirilir, Şahtaxtı kəndində isə Şahtaxtinskilər Muzeyi əsaslı təmir işlərindən sonra istifadəyə verilib. Rayon mərkəzində ucaldılan 48 mənzilli yeni yaşayış binası isə yaxın gələcəkdə əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına öz töhfəsini verəcək. Sakinlər də məhz bu görülən işləri yüksək qiymətləndirir, rayon iqtisadiyyatının güclənməsinə öz töhfələrini verir, bölgədə həyata keçirilən quruculuq işlərində fəal iştirak edirlər. Ümumilikdə isə bütün sahələrdə qazanılan uğurlar, əldə olunan nailiyyətlər rayon sakinlərinin əhval-ruhiyyəsini daha da artırır. Novruz bayramı şənliklərində hər kəsin çöhrəsində bu yüksək əhval-ruhiyyə, xoşbəxtlik və sevinc hissləri aydın duyulurdu.

## Şahbuz rayonu



Şahbuz rayonunda keçirilən Novruz bayramına həsr olunmuş şənliklər öz rəngarəngliyi ilə yadda qalan olub. Rayon mədəniyyət evinin “Batabat” instrumental ansamblı solistlərinin ifasında səslənən mahnılar alqışlarla qarşılanıb. Onların baharı, Azərbaycanı tərənnüm edən mahnıları dalğa-dalğa hər tərəfə yayılıb, şux, oynaq musiqi sədaları ətrafı bürüyüb. Qara zurnanın dağlarda əks-səda verən sədaları ilə meydanda çıxış edən rəqs və yallı kollektivlərinin, milli geyimli uşaqların çıxışları, uşaq musiqi məktəblərinin nağaraçalanlar qrupunun ifaları bayram tədbirinə xüsusi rövnəq verdi. Xalqımıza məxsus qədim Novruz adət-ənənələrinin, folklor nümunələrinin bölgədə qorunub saxlanıldığını və bu günə kimi yaşadıldığını bayramın əsas personajları olan Kosa və Keçəlin duzlu-məzəli söhbətlərində, kənd mədəniyyət evlərində fəaliyyət göstərən folklor qruplarının, “Hodu-hodu”, “Çöpüdü” kimi xalq oyunları ifaçılarının, sazçalan uşaqların çıxışlarında aydın şəkildə görmək mümkün idi.

Tədbirdə müxtəlif idman növləri üzrə nümunəvi çıxışlar, qədim xalq sənətkarlığı, milli mətbəx və əl işləri sərgiləri şənliyə yaraşıq verib. Şahbuz şəhər parkında təşkil olunmuş rəngarəng xidmətlər, milli şirniyyatlı çay süfrəsi tədbir iştirakçılarının rahat istirahət edə bilmələri üçün gözəl ab-hava yaradıb.

Qeyd edək ki, rayonda keçirilən bayram tədbiri əhaliyə göstərilən ticarət və iaşə xidmətləri ilə gün ərzində davam etdirilib.

## Sədərək rayonu



Martın 19-da Sədərək rayonunda keçirilən ümumrayon şənliyində bölgənin musiqi kollektivləri xalqımızın Novruz adət-ənənələrini, qədim el sənətkarlığından nümunələr nümayiş etdirib, Kosa, Keçəl və Bahar qız tamaşa göstərib, rəngarəng konsert proqramı ilə çıxış ediblər. Sonra tədbir iştirakçıları Novruz bayramının əsas personajları olan Kosa və Keçəlin sərgüzəştlərinə baxıblar. Ulu Dədə Qorqud xeyir-dua verərək Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzulayıb. Mədəniyyət işçilərinin rəqsləri, baharı, Azərbaycanı, Naxçıvanı tərənnüm edən mahnılar şənlik iştirakçılarında xoş ovqat yaradıb.

Sonra xalq yaradıcılığı nümunələrindən və yerli sahibkarların istehsal etdikləri məhsullardan ibarət sərgiyə baxılıb. Sərgidə xalq sənətinin ağacişləmə, dülgərlik, toxuculuq, xalçaçılıq, dəmirçilik, daşyonma sahələrini özündə əks etdirən nümunələr şənlik iştirakçıları tərəfindən maraqla qarşılanıb.

**Xəbərlər şöbəsi**

### Xalq təqvimi

## Ocağınız bərəkətli olsun

Boz ayın sonuncu çərşənbəsi Od çərşənbəsidir. Xalqımız özünün mövsümlərə uyğun hazırladığı təqviminin son çərşənbəsinə müxtəlif adlar vermişdir. Belə ki, axır çərşənbə “İlaxır çərşənbə”, “Axırıncı çərşənbə”, “Baca-baca”, “Yeddiləvin” adlarıyla da bilinən “Od çərşənbəsi”dir. Naxçıvan bölgəsində “İlaxır” özündən əvvəlki üç çərşənbədən yüksəkdə duran, ən təmtəraqlı qeyd edilən mərasimlərdən biridir. Topladığımız çöl-etnoqrafik materiallarına görə, axır çərşənbəyə hazırlıq kiçik çillədən sonra başlanır. İlk növbədə, həyət-baca təmizlənir, evlər səliqə-sahmana salınır. El arasında buna “külə-külə” də deyərlər. Həmin gün yaxın qohumlar yaşlı olan qohumların evlərinə gedib, ağbirçəklərdən icazə alıb onların evlərini təmizləyər, əyinlərindəki yas paltarlarını çıxarıb, bayram libası geyindirərlər. Bu cür evlərdə bütün əşyaların yeri dəyişdirilməlidir ki, evdə “kəsavət” qalmasın.

Qədim insanlar, ata-babalarımız, ulu əcdadlarımız bütün canlı təbiəti oyadan, onu isindirən Odu, Günəşi müqəddəs sayaraq ona bir növ yaradılışın, canlı həyatın əsas qüvvələrindən biri kimi baxmış, bu mənada, Od ulu əcdadlarımız üçün müqəddəsləşmişdir.

Od-ocaq bu gün də xalqımız tərəfindən müqəddəs sayılır. Heç də təsadüfi deyil ki, bu gün də Naxçıvan Muxtar Respublikasında xalqın müqəddəs saydığı bir çox ziyarətgahlar həm də “Ocaq” adlandırılır. Bunun ən bariz ifadəsi şifahi xalq ədəbiyyatı nümunələrimizdə özünü göstərir. Naxçıvandan toplanmış bayatılarımızda da biz ziyarətgah yerlərinin ocaq kimi təsvir edildiyini görürük:

*Asəfkəhf ocaq-ocaq,*<br>
*Orda şamlar yanacaq.*<br>
*Qəm yemə dəli könül,*<br>
*Sən dediyin olacaq.*

Naxçıvanda odla bağlı adət və inanc sistemlərinə, od kultuna daha çox axır çərşənbədə rast gəlinir. Bu çərşənbədə daha güclü tonqallar



çatılır, atəşfəşanlıq edilir, tonqalın ətrafına toplaşan insanlar odun üzərindən atlanmaqla köhnə ildən qalan əzablarını, ağırlıqlarını sanki arxada qoyur və yeni ildə xoşbəxt, firavan həyat yaşayacaqlarına inanırlar. Yandırılmış odun üstündən “ağırlığım, uğurluğum (“yorğunluğum” sözünün zamanla dəyişilmiş forması), dərdim, bəlam bu oda tökülsün”, – deyib atlanarlar. İnama görə, odun üstündən atlanan şəxs ilboyu xəstələnməz, dərd, qəm ondan uzaq durar. Xəstə heyvanları, yeni doğulmuş quzuları da odun üstündən keçirmək kimi adətlər mövcud olmuşdur.

İlaxır çərşənbədə yandırılan tonqalın tüstüsü arana gedərsə, aranda, dağlıq tərəfə gedərsə, dağlıq ərazidə, əgər düz yuxarı qalxarsa, hər tərəfdə həmin il bolluq olacağına inanırlar. Axır çərşənbədə hər bir ailə çalışır ki, yandırdığı tonqalın alovu hündürə qalxsın. Bunun ailəyə uğur gətirəcəyinə inanırlar.

Yandırılmış odun külünü götürüb bolluq, bərəkət rəmzi olaraq əkin sahələrinə, toyuq-cücələrin üstünə, mal-heyvanın altına səpərlər. Şər qüvvələrdən qorunmaq, onları qovmaq üçün ilaxır tonqalının külündən evin dörd küncünə qoyarlar. Kəngərli rayonunun bəzi kəndlərində odun külünün üstünü torpaqla örtərdilər ki, külək onu (odun külünə bərəkət kimi baxardılar) dağıtmasın.

Naxçıvan Muxtar Respublikasında Odla bağlı keçmişdən günümüzədək gələn müxtəlif səpkili mərasimlər, adətlər var. Onlardan biri də yallıdır. Dəyərli tədqiqatçı-alim Mirəli Seyidovun fikirlərindən yola çıxaraq Naxçıvanda, xüsusilə Şərur bölgəsində yallının uzun minilliklər boyu yaşadılması və qorunub-saxlanılması bu bölgədə tarixən xalq düşüncəsində oda müqəddəs məfhum kimi yanaşılmasının təzahürü kimi diqqəti cəlb edir.

Naxçıvanda ilin axır çərşənbəsi olan Od çərşənbəsi ilə bağlı yaddaşlarda qalan bir çox nəğmə, etiqad, mərasim, mif və rəvayətlər bu günümüzə qədər gəlib çatmışdır. Onlardan birində – “Qodu xan” rəvayətinə görə Od çərşənbəsində adamlar sübh tezdən hündür bir təpənin üstündə tonqal qalayar, həmin tonqalın dövrəsinə toplaşıb Günəşin doğmasını gözləyərmişlər. Elə ki Günəş doğdu, hamı onu salamlayıb “Qodu xan” nəğməsini oxuyar, tonqalın başında dövrə vurar, sonra da hər bir kəs tonqaldan öz odunu yandırıb ocaqlarını alışdırmaq üçün evə tələsərmiş.

Onu da qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasında İlaxır çərşənbə axşamı qohumlar, qonşular yaslı evlərə gedib onlar üçün də “çərşənbə odu”nu yandırar, beləcə, onları yasdan çıxararlar. Çünki yeni ilə yaslı girmək uğurlu sayılmaz.

Axır çərşənbədə od yandırıldıqdan sonra hər kəs süfrə başında əyləşir. Xalq arasında olan inama görə, həmin gün evində olmayan yeddi il evində olmaz. Axşam düşdükdə qızlar “qulaq falı”na çıxar, niyyət edib qapı pusarlar. Ev yiyələri də çalışarlar ki, həmin günü xoş sözlər danışsınlar.

Oğlan uşaqları papaq, torba atarlar. Torbalara boyanmış yumurta, alma, şəkərbura, paxlava, fındıq, badam, cəviz qoyarlar.

Od ünsürünün xalq arasındakı müqəddəsliyini ortaya qoyan yüzlərlə şifahi xalq ədəbiyyatı nümunəsi də var. Muxtar respublikamızın müxtəlif bölgələrindən toplanmış həmin nümunələrdə deyilir ki, “Od imandandır”, “Odsuz ocaq olmaz”, “Od ocaqda yanar”, “Oda pənah aparanın ocağı sönməz”, “Oda dərdini deyən xeyir aparar”, “Ocaq sönməyən yerdə məskən salarlar” və digər atalar sözlərimizlə bərabər, bir çox inanclarımızda da odun, ocağın müqəddəsliyi qorunub saxlanmışdır.

“Ocaq yananda səslənirsə, demək, kimsə sözünü danışır”, “Od hisli olarsa, uzaqdan qonağın gələcək”, – deyərlər. “Ocağa yanaşanda salam verərlər”, “Ocaqda kül titrəyəndə – Od xeyrə oynayır”, – deyərlər və odun ailədə bir körpə dünyaya gətirəcəyinə inanarlar. “Ocağın tüstüsü üstünə gəlsə, sevgilin göyçək olar”, “Gün düşən yerdə xəstəlik olmaz”, “Gün doğanda doğulan uşaq göyçək olar”, “Çıraq yandıranın çırağı sönməz olar” xalq inancları bunların bir qismidir.

Axır çərşənbənin səhəri də bir çox adətlər yerinə yetirilmişdir. Belə ki, bu gün də davam edən həmin adətlərə görə, axır çərşənbənin səhəri günü Günəş çıxmamışdan “su üstə” getmək adətdir.

*Biz də İlaxır çərşənbə – Od çərşənbəsi münasibətilə xalqımızı təbrik edir, varlı-bərəkətli günlər arzulayırıq. “Ağırlığınız-yorğunluğunuz” qaladığınız tonqallara tökülsün, əziz həmvətənlər. Ocağınız bərəkətli olsun, nurlu olsun! Odunuz sönməsin!*

**Elxan MƏMMƏDOV**<br>
**filologiya üzrə fəlsəfə doktoru**

**Asəf ORUCOV**<br>
**tarix üzrə fəlsəfə doktoru**

## Naxçıvanda “Gənclər bağı” salınıb

Naxçıvan şəhərinin 2018-ci ildə ölkəmizdə Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən muxtar respublikanın Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhəri ətrafında, 1 hektarlıq ərazidə “Gənclər bağı” salınıb. Bağın salınmasında Gənclər və İdman Nazirliyi və nazirliyin strukturuna daxil olan qurumların əməkdaşları ilə yanaşı, ali və orta ixtisas məktəblərinin tələbələri internet resursları və sosial şəbəkələr vasitəsilə könüllülük prinsipi əsasında qeydiyyatdan keçmiş 200 nəfərədək gənc də iştirak edib.



Daha sonra ekoloji aksiyaya start verilib, 750 ədəd müxtəlif meyvə növlərinə məxsus tinglər müvafiq qaydada əkilərək suvarılıb və gübrələnib. Əkilmiş ağaclara bundan sonra da müntəzəm qaydada qulluq göstəriləcəkdir.

**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Naxçıvan şəhəri, “48-ci” məhəllə, mənzil 49-da qeydiyyatda olan Bağırov Sahib Fərəməz oğlunun adına olan 12876 inventar nömrəli texniki pasport və 104013001297-103763 nömrəli reyestrdən çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 230